# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ YAŞIL TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Nigar Namiq**

*AR ETN İqtisadiyyat İnstitutu, Bakı*

Ölkəmizdə turizmin inkişafı, turizm və ekskursiyaların coğrafiyasının genişlənməsi 1970-1980-ci illərə aid edilir. Azərbaycanda turizm sektorunun işğala qədərki dövrünə nəzər saldıqda görərik ki, bütün sahələrdə olduğu kimi, insanların istirahətinin təmin edilməsi məsələlərinə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçildikdən sonra xüsusi diqqət ayrıldı. Belə ki, onun tapşırığı ilə 1970-ci ildə Zaqatala və 1972-ci ildə Şuşa şəhərlərinin turizm bazalarında yenidənqurma işləri başa çatdırıldı, 1971-ci ildə Xankəndində, 1972-ci ildə Mingəçevirdə ekskursiya büroları açıldı. 1975-ci ildə Qəbələdə "Qafqaz" və Nabranda "Dostluq" turizm bazaları, Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verildi. Növbəti illərdə də bu işlər davam etdirilərək 1978-ci ildə Naxçıvanda, 1980-ci ildə Lənkəranda, 1982-ci ildə Əli Bayramlıda, Qazaxda və Şamaxıda səyahət və ekskursiya büroları yaradıldı. Beləliklə, 1970-ci illərdən həm daxili, həm də xarici turizm inkişaf etməyə başladı. Daha sonrakı illərdə Heydər Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə Xəzərin Azərbaycan sahillərində ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması ilə ölkəmizdə 1984-dən 2000-ci ilə qədərki dövrü əhatə edən turizmin inkişafı sxemi qəbul olundu [1].

Turizmin inkişaf etdirilməsinə dair hüquqi bazaya nəzər salaraq, qeyd edək ki, hələ 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildikdən sonra, həmin ilin 27 iyul tarixində Ulu Öndər Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında fərman imzaladı. Sözügedən qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəlmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi. Belə ki, respublikamıza turizm fəaliyyəti üzrə tövsiyələr və praktiki kömək edilməsinə imkanların açılması üçün ölkəmiz 2001-ci ilin sentyabr ayının 25-də Ümumdünya Turizm Təşkilatına (ÜTT) üzv oldu.

Ölkədə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə Respublika Prezidentinin 2002-ci il 27 avqust tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu [3]. Azərbaycanın turistlərin böyük marağına səbəb olması ölkədə əlverişli iqlim şəraitinin, çoxlu sayda tarix və mədəniyyət abidələrinin, faydalı mineral bulaqların olması ilə əlaqələndirilə bilər. Lakin turizm fəaliyyətinin daha da səmərəli olmasını təmin etmək üçün təkcə turizm resurslarının olması kifayət etmir. Bunu həm də onunla izah etmək olar ki, çoxlu sayda turist var ki, onlar üçün müasir mehmanxanaların və ya məsələn, nəqliyyat vasitələrinin olmadığı bir ölkə turist səfəri üçün yararsızdır. Bütün bu amilləri nəzərə alan Azərbaycan turistlərin ölkəyə cəlb olunması üçün bütün səylərini göstərir.

Qeyd etmək lazımdır ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin tərtib etdiyi təxmini plana görə, "Böyük Qayıdış"ın 2022-2040-cı illəri əhatə edəcək dövrün ikinci mərhələsi (2026-2030-cu illər) Hadrut, Tuğ və Suqovuşan kimi ərazilərdə turizmin inkişafı ilə səciyyələnməsi nəzərdə tutulub. Eyni zamanda, qeyd olunan regionların investisiya imkanları təhlil edilərək həmin regionlar üçün prioritet sahələr müəyyən olunmuşdur. İlkin dövrdə ərazilərdə ticarət mərkəzlərinin (mollar, hotellər və s.), orta mərtəbəli binaların tikintisi, topdansatış mərkəzlərinin, avtoservis və yanacaq doldurma məntəqələrinin salınması planlaşdırılır. Nəzərdə tutulan strategiyanın reallaşdırılması sayəsində 2030-cu ilə qədər işğaldan azad olunmuş ərzilərdə gözlənilən işçi qüvvəsinin sayı təxmini 150 min nəfərə çatdırılacaq ki, onlardan 2000-i məhz turizm sektorunda çalışanlar olacaq.

Şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərdə yaşıl turizmin inkişafı üçün münbit şərait vardır. Yaşıl turizm məskunlaşan kənd yerləri üçün ilk real alternativ, onun sakinləri üçün gəlir mənbəyi kimi çıxış edir, yeni əmək bazarı yaradır və ümumi həyat səviyyəsini yaxşılaşdırır. Təhlil edilmiş beynəlxalq təcrübənin əsasında [2, 3] işğaldan azad olunmuş ərazilərdə təbii mühitdə və kənd landşaftında istirahət təklif edə biləcək yaşıl turizmin aşağıdakı üstünlüklərini vurğulaya bilərik (cədvəl 1).

**Cədvəl 1. Müxtəlif subyektlər üçün yaşıl turizmin əhəmiyyəti**

| Ev təsərrüfatları üçün | Kənd yerləri üçün | Turistlər üçün |
|---|---|---|
| Məişət vəsaitlərinin istifadəsi | Kənd yerlərində mövcud vəsaitlərin istifadəsi | İstirahət və sağlamlıq |
| Əlavə gəlir | Əlavə gəlir | Müalicə imkanları |
| Əlavə iş yerləri | Kənd infrastrukturunun təkmilləşdirilməsi | Ekoloji təmiz məhsulların əldə edilməsi |
| Ev təsərrüfatlarının mədəni-maarifləndirici inkişafı və s. | Kənd icmasının aktivləşməsi və s. | Təbiətlə bilavasitə əlaqə və s. |

Cədvəldə göstərilən istiqamətlərin təhlilinə gəlincə qeyd etmək lazımdır ki, yaşıl turizm təbiətdən, ekoloji cəhətdən təmiz yerlərdən və unikal biomüxtəlifliklərdən həzz almaq istəyən insanları cəlb edir. Bu, bölgəyə gələn turistlərin sayının artmasına səbəb ola bilər ki, bu da turizm sənayesinin inkişafına və turizm gəlirlərinin artmasına kömək edəcək. Eləcə də, yaşıl turizmin inkişafı xidmət sektorunda, restoran və mehmanxana bizneslərində, turizm agentliklərində və ekoloji cəhətdən təmiz xidmətlər və məhsullar təqdim edən yerli müəssisələrdə yeni iş yerlərinin yaradılmasına kömək edə bilər. Turistlər yaşayış, yemək, yerli məhsullar və suvenirlər üçün pul xərclədikləri üçün yaşıl turizm yerli iqtisadiyyatın güclənməsinə səbəb olur. Bu, yerli istehsalçıları və sənətkarları dəstəkləyə, yerli biznesin və kiçik biznesin böyüməsini təşviq edə bilər.

Məlum olduğu kimi, yaşıl turizmin inkişafı çox vaxt ekoloji cəhətdən davamlı otellərin tikintisi, turizm marşrutlarının inkişafı, qoruqların və milli parkların mühafizəsi kimi infrastruktura investisiya tələb edir. Bu, tikinti sənayesini və infrastruktur layihələrini stimullaşdıraraq iqtisadi artımı təşviq edə bilər.

Beləliklə, işğaldan azad olunmuş ərazilərdə yaşıl turizm turizm sektorunun inkişafını, iş yerlərinin yaradılmasını, infrastruktur investisiyalarını və ətraf mühitin mühafizəsini stimullaşdırmaqla ölkənin ümumi iqtisadi artımına müsbət təsir göstərə bilər.

**Ədəbiyyat siyahısı:**

1. Heydər Əliyev və Azərbaycan turizmi. http://www.anl.az/down/meqale/medeniyyet/medeniyyet_may2009/78916.htm

2. Maharaj Vijay Reddy, Keith Wilkes. Tourism in the green economy: Rio to post-2015. https://www.taylorfrancis.com/chapters/edit/10.4324/9781315885681-8/tourism-green-economy-rio-post-2015-maharaj-vijay-reddy-keith-wilkes

3. Letunovska N., Kwilinski A. et al. Sustainable Tourism for the Green Economy. 2021. URL: https://www.ceeol.com/search/article-detail?id=1055527